# AZƏRBAYCAN CÜDO FEDERASİYASININ KƏMƏR VƏ DAN İMTAHANLARI İLƏ BAĞLI TƏLİMATI



VERSİYA: 30 MAY 2023

Azərbaycan
Cüdo
Federasiyası

**“Azərbaycan Cüdo Federasiyası” İctimai Birliyinin**

**Kəmər və dan imtahanları ilə bağlı**
**TƏLİMATI**

## *BİRİNCİ HİSSƏ*

### Kəmər və Dan imtahanlarının məqsədi

Bu təlimatın əsas məqsədi cüdo idman növünün fundamental, keyfiyyətli inkişafı, beynəlxalq standartlara uyğunlaşdırılması, həmçinin, bu idman növü ilə məşğul olan uşaq və yetkinlərin kəmər və dan sistemləri vasitəsi ilə həvəsləndirmə prosesinin effektiv təşkilini və idarə olunması qaydalarını müəyyənləşdirməkdən ibarətdir.

Bu təlimat Azərbaycan Cüdo Federasiyasının cüdo idman növü üzrə kəmər və dan imtahanlarının təşkilini, kəmərlərin növləri, dan təsnifləndirmələri, həmçinin kəmər və danların həvəskar və peşəkar idmançılara verilməsi prosedurlarını əhatə edir.

Bu təlimat Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsinin müzakirəsi, təklifi və təşəbbüsləri ilə təkmilləşdirilə, dəyişdirilə və təsdiqlənə bilər.

### Əsas anlayışlar

1. ACF – Azərbaycan Cüdo Federasiyası
2. Baş katib – Azərbaycan Cüdo Federasiyasının baş katibi
3. Kəmər imtahan komitəsi – ACF-nin baş katibinin təqdimatı əsasında İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmiş ən azı 3 (üç) nəfərdən ibarət kəmər dərəcələri üzrə imtahanları götürəcək və həmin dərəcələri təsdiq edəcək heyət
4. Kəmər imtahanı – ACF tərəfindən təsdiq edilmiş regional bölgüyə uyğun olaraq hər regionda ildə ən az bir dəfə olmaqla təşkil olunan kəmər dərəcələrinin verilməsi üzrə imtahan
5. Dan imtahan komitəsi – ACF-nin baş katibinin təqdimatı əsasında İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmiş ən azı 3 (üç) nəfərdən ibarət dan dərəcələri üzrə imtahanları götürəcək və həmin dərəcələri təsdiq edəcək heyət
6. Dan imtahanı – ACF tərəfindən təsdiq edilmiş regional bölgüyə uyğun olaraq hər regionda ildə ən az bir dəfə olmaqla təşkil olunan dan dərəcələrinin verilməsi üzrə imtahan
7. Kəmər cədvəli – KYU dərəcələrini və müvafiq rəngdə kəməri əks etdirən cədvəl
8. Dan cədvəli – dan səviyyələri üzrə tələbləri özündə əks etdirən cədvəl

## *İKİNCİ HİSSƏ*

### İmtahan komitələri

Kəmər və dan imtahan komitələri hər biri ayrı-ayrılıqda ACF baş katibinin təqdimatı ilə İcraiyyə Komitəsi tərəfindən təsdiqlənmiş ən azı 3 (üç) nəfərdən ibarət üzvü olan heyətdir. Komitələr kəmər və dan imtahanlarının təşkili ilə bağlı bütün proseslərin icrasını həyata keçirir. Komitə üzvlərinin öz istəyi ilə və ya nizam-intizam komitəsinin müraciəti əsasında komitədəki fəaliyyətinə İcraiyyə Komitəsi tərəfindən xitam verilə bilər.

Azərbaycan Cüdo Federasiyası

Kəmər və dan imtahan komitələri hər ilin sonunda növbəti il üçün kəmər imtahanlarının, dan imtahanlarının təqvimini baş katibə təsdiq üçün təqdim etməlidir. Komitə təqvimi tərtib edərkən regionların ehtiyaclarını, kəmər və dan imtahanı tələbatını araşdırmalı, klub və idman cəmiyyətləri ilə məsləhətləşmələr aparmalıdır. Baş katib tərəfindən təsdiq olunmuş təqvimin KİV və ACF-nin media resursları vasitəsi ilə ictimaiyyətə əlçatanlığı təmin edilməlidir.

Azərbaycan Respublikası ərazisində kəmər və dan imtahanlarının təşkili, həvəskar və ya peşəkar səviyyədə cüdo idman növü ilə məşğul olan uşaq, yeniyetmə və yetkinlərə hər hansı kəmərin və ya danın təqdim edilməsi ACF-nin kəmər və ya dan imtahan komitəsinə məlumat verilmədən keçirilə bilməz. ACF tərəfindən müvafiq lisenziyaya sahib klublar bu tələbi pozduqları halda lisenziyanın geri alınması ilə bağlı tədbirlər həyata keçirilə bilər.

Hər hansı xarici ölkədə kəmər imtahanında iştirak etmiş və ya kəmər, dan dərəcəsi almış şəxs ərizə ilə kəmər və ya dan imtahan komitəsinə müraciət edə bilər. Müraciət ərizəsinə xarici ölkədə əldə edilmiş kəmər və ya danın sənədlərinin rəsmi tərcüməsi əlavə edilməlidir. Kəmər və ya dan imtahan komitəsi müraciəti araşdıraraq uyğun olduğu halda həmin şəxsə ACF-nin müvafiq sənədini imtahandan kənar təqdim edə bilər.

**Kəmər və dan imtahanları**

1. Kəmər və dan imtahanları regionları əhatə etmək şərtilə ildə ən azı 2 dəfə olmaqla təşkil edilir.
2. Kəmər imtahanlarında 7 yaşı tamam olmuş hər bir şəxs iştirak edə bilər.
3. İmtahanda imtahan komitəsinin ən azı 3 (üç) üzvü iştirak etməlidir.
4. Kəmər və dan imtahanlarında yalnız lisenziya almış klubların və idman cəmiyyətlərinin idmançıları və məşqçiləri iştirak edə bilərlər.
5. İmtahanda uğur qazanmayan şəxslər istənilən növbəti imtahana qatıla bilər.
6. Kəmər imtahanından uğur qazanmış şəxs ən az 6 ay müddət keçdikdən sonra növbəti kəmər səviyyəsi imtahanında iştirak edə bilər.
7. Kəmər və dan imtahanlarında iştirakçıların 1-ci dərəcəli (valideyn, qardaş, bacı) qohumları izləyici kimi iştirak edə bilər.
8. İmtahan komitəsi imtahanda iştirak edən şəxsə aid bütün məlumatları və imtahan nəticələrini ACF-nin elektron sisteminə ən geci 10 gün müddətində daxil etməlidir.
9. İmtahanda uğur qazanmış şəxslərə yeni kəmər, kəmər səviyyəsini və ya dan dərəcəsini göstərən sənədlər imtahandan sonra təqdim edilir.
10. Kəmər və dan imtahanlarında iştirak ödənişli əsaslarla təşkil edilir və iştirakın ödənişi haqqında məlumat regiona və yaş qruplarına uyğun olaraq dəyişə bilər.
11. İşitrak haqqını baş katibin təqdimatı əsasında İcraiyyə Komitəsi təsdiq edir.
12. İmtahan nəticələrindən etirazı olanlar və ya onların qəyyumları imtahanın keçirildiyi tarixdən sonra 10 (on) təqvim günü müddətində ACF-nin baş katibinə yazılı formada müraciət edə bilərlər.
13. İmtahan nəticələrindən etiraza ACF baş katibi imtahan komitəsi ilə birlikdə video-qeydlər vasitəsi ilə təkrar baxıb nəticə ilə bağlı qərarı qüvvədə saxlaya və ya dəyişə bilər.
14. Bu qaydalarda qeyd edilməyən məsələlər BCF və ACB mövcud qaydaları çərçivəsidə ACF Dan komissiyası tərəfindən verilən qərarlar əsasında həll edilir.
15. İmtahanlar üçün ödəniş ACF tərəfindən təsdiqlənmiş Kəmər və Dan imtahanları qiymət cədvəlinə əsasən tənzimlənir.
16. Bu sənədlə təsdiq edilən bütün qaydaların tam tətbiq edilməsi üçün keçid müddəti 2025-ci ilin 1 yanvar tarixinədək təyin olunur. Həmin tarixə qədər namizədlərin imtahanlara buraxılma şərtlərində aşağıdakı güzəştlər tətbiq edilə bilər. Qeyd

edilən müddət ərzində namizədin istənilən kəmər dərəcəsi imtahanına girməsi üçün yalnız yaşının uyğun olması kifayət edir. Keçid müddəti bitdikdən sonra müraciət edən namizədlər bütün dərəcələr üzrə kəmər imtahanlarında ardıcıl olaraq iştirak etməli, hər bir səviyyə üzrə gözləmə müddətini tamamlayaraq növbəti kəmər imtahanına keçid etməlidir.

**Keçid müddəti ərzində imtahanlara müraciət üçün yaş həddi:**

| Kyu | Kəmər dərəcəsi | Yaş həddi |
|---|---|---|
| Başlanğıc | Ağ kəmər | - |
| 6-cı KYU – Rokko-Kyu / Go-Kyu | Ağ, üzəri sarı zolaq kəmər | hər kəs |
| 5-ci KYU – Go-Kyu | Sarı kəmər | ≤ 10 yaş |
| 4-cü KYU – Shi-Kyu | Narıncı kəmər | ≤ 11 yaş |
| 3-cü KYU – San-Kyu | Yaşıl kəmər | ≤ 12 yaş |
| 2-ci KYU – Ni-Kyu | Göy kəmər | ≤ 13 yaş |
| 1-ci KYU – İk-Kyu | Qəhvəyi kəmər | ≤ 15 yaş |

17. Azərbaycan Cüdo Federasiyası tərəfindən keçirilən kəmər imtahanları aşağıda qeyd olunan fəndlər (katalar) üzrə keçiriləcək.

## ÜÇÜNCÜ HİSSƏ

**Kəmər cədvəli**

| Kyu | Kəmər dərəcəsi |
|---|---|
| Başlanğıc | Ağ kəmər |
| 6-cı KYU – Rokko-Kyu / Go-Kyu | Ağ, üzəri sarı zolaq kəmər |
| 5-ci KYU – Go-Kyu | Sarı kəmər |
| 4-cü KYU – Shi-Kyu | Narıncı kəmər |
| 3-cü KYU – San-Kyu | Yaşıl kəmər |
| 2-ci KYU – Ni-Kyu | Göy kəmər |
| 1-ci KYU – İk-Kyu | Qəhvəyi kəmər |

### Bilik və bacarıq minimumları

**Başlanğıc – Ağ kəmər**



Ağ kəmər cüdoya başlayan yeni idmançılara təqdim edilir və aşağıdakı bilik və bacarıqlar nümayiş etdirilməlidir.

| | Cüdo geyimi ilə tanışlıq |
|---|---|
| 1. | Gödəkcə - kimano |
| 2. | Tuman (şalvar) – cubon |
| 3. | Kəmər – obi |
| 4. | Tam cüdoçu geyimi – cüdoqi |
| 5. | Kəmərin bağlanması və geyimin bükülüb-yığılması |

| | Etiket, tutmalar, yerdəyişmələr |
|---|---|
| 1. | Salamlaşma – tənzim |
| 2. | Duruşda – Ritsurey |
| 3. | Dizlər üstə – Zarey |
| 4. | Duruşlar (sisey, sidzey-xontay, migi-sidzentay və digərləri) |
| 5. | Tutmalar – kumi-kata |
| 6. | Yerdəyişmələr |
| 7. | Tarazlıqdan çıxarma |
| 8. | Dönmələr |
| 9. | Özünümüdafiə |
| 10. | Hazırlayıcı hərəkətlər |

## 6-cı Kyu – Ağ üzəri sarı zolaq kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | **Te-waza** |
|---|---|
| 1. | Seoi-otoshi – |
| | **Koshi-waza** |
| 2. | Koshi-guruma – |
| | **Ashi-waza** |
| 3. | O-soto-otoshi – |
| | **Osaekomi-waza** |
| 4. | Kesa-gatame – |
| 5. | Kami-shiho-gatame – |

## 5-ci Kyu – Sarı kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | **Te-waza** |
|---|---|
| 1. | Ippon-seoi-nage – |
| | **Koshi-waza** |
| 2. | O-goshi – |
| | **Ashi-waza** |
| 3. | Sasae-tsurikomi-ashi – |
| 4. | O-uchi-gari – |
| 5. | O-uchi-gaeshi – |
| 6. | De-ashi-harai – |
| | **Osaekomi-waza** |
| 7. | Kuzure-kesa-gatame – |

## 4-cü Kyu – Narıncı kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | |
|---|---|
| | **Te-waza** |
| 1. | Tai-otoshi – |
| | **Koshi-waza** |
| 2. | Uki-goshi – |
| 3. | Tsuri-goshi – |
| | **Ashi-waza** |
| 4. | O-soto-gari – |
| 5. | Ko-soto-gari – |
| 6. | Hiza-guruma – |
| 7. | Ko-uchi-gari – |
| | **Ma-sutemi-waza** |
| 8. | Tomoe-nage – |
| | **Yoko-sutemi-waza** |
| 9. | Tani-otoshi – |
| 10. | Ko-uchi-makikomi – |
| | **Osaekomi-waza** |
| 11. | Yoko-shiho-gatame – |
| 12. | Kata-gatame – |
| | **Shime-waza** |
| 13. | Gyaku-juji-jime – |
| 14. | Nami-juji-jime – |
| 15. | Kata-juji-jime – |
| | **Kansetsu-waza** |
| 16. | Ude-garami – |
| 17. | Ude-hishigi-ude-gatame – |

## 3-cü Kyu – Yaşıl kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | |
|---|---|
| | **Te-waza** |
| 1. | Uchi-mata-sukashi – |
| 2. | Seoi-nage – |
| | **Koshi-waza** |
| 3. | Harai-goshi – |
| 4. | Hane-goshi – |
| | **Ashi-waza** |
| 5. | Okuri-ashi-harai – |
| 6. | Harai-goshi-gaeshi – |
| 7. | Uchi-mata – |
| 8. | Tsubame-gaeshi – |
| | **Ma-sutemi-waza** |
| 9. | Sumi-gaeshi – |
| | **Yoko-sutemi-waza** |
| 10. | Yoko-otoshi – |
| 11. | Uki-waza – |
| | **Osaekomi-waza** |
| 12. | Kuzure-kami-shiho-gatame – |
| 13. | Ushiro-kesa-gatame - |
| | **Shime-waza** |
| 14. | Hadaka-jime – |
| 15. | Ryote-jime – |
| 16. | Tsukkomi-jime – |
| | **Kansetsu-waza** |
| 17. | Ude-hishigi-juji-gatame – |

## 2-ci Kyu – Göy kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | **Te-waza** |
|---|---|
| 1. | Uki-otoshi – |
| 2. | Sumi-otoshi – |
| 3. | Yama-arashi - |
| | **Koshi-waza** |
| 4. | Tsurikomi-goshi – |
| 5. | Sode-tsurikomi-goshi – |
| | **Ashi-waza** |
| 6. | O-guruma – |
| 7. | O-soto-gaeshi – |
| 8. | Harai-tsurikomi-ashi – |
| 9. | Ashi-guruma – |
| | **Ma-sutemi-waza** |
| 10. | Hikikomi-gaeshi – |
| | **Yoko-sutemi-waza** |
| 11. | Soto-makikomi – |
| 12. | Hane-makikomi – |
| 13. | Yoko-guruma – |
| | **Osaekomi-waza** |
| 14. | Ura-gatame - |
| 15 | Tate-shiho-gatame – |
| | **Shime-waza** |
| 16. | Kataha-jime – |
| 17. | Sode-guruma-jime – |
| 18. | Okuri-eri-jime – |
| | **Kansetsu-waza** |
| 19. | Ude-hishigi-hiza-gatame - |
| 20. | Ude-hishigi-hara-gatame – |
| 21. | Ude-hishigi-te-gatame – |

## 1-ci Kyu – Qəhvəyi kəmər



Bu kəmərə sahib olmaq istəyən şəxslər aşağıdakı mövzular üzrə bilik və bacarığa malik olduqlarını imtahan zamanı nümayiş etdirməlidirlər.

| | **Te-waza** |
|---|---|
| 1. | Kata-guruma |
| 2. | Kuchiki-taoshi - |
| 3. | Morote-gari - |
| | **Koshi-waza** |
| 4. | Ushiro-goshi |
| 5. | Utsuri-goshi |
| | **Ashi-waza** |
| 6. | O-soto-guruma – |
| 7. | Uchi-mata-gaeshi – |
| 8. | Ko-soto-gake |
| 9. | Hane-goshi-gaeshi |
| | **Ma-sutemi-waza** |
| 10. | Ura-nage – |
| | **Yoko-sutemi-waza** |
| 11. | Harai-makikomi |
| 12. | Yoko-gake |
| 13. | Yoko-wakare |
| 14. | Uchi-mata-makikomi |
| | **Osaekomi-waza** |
| 15. | Uki-gatame - |
| | **Shime-waza** |
| 16. | Sankaku-jime |
| 17. | Katate-jime |
| | **Kansetsu-waza** |
| 18. | Ashi-garami |
| 19. | Ude-hishigi-waki-gatame |
| 20. | Ude-hishigi-ashi-gatame |

## Dan dərəcələrinin verilməsi ilə bağlı minimumlar cədvəli

Azərbaycan Cüdo Federasiyası Beynəlxalq Cüdo Federasiyasının üzvü kimi və mövcud qaydalara əsasən 7-ci dan səviyyəsinə qədər aşağıdakı cədvəl üzrə dan dərəcəsi təyin edə bilər.

| | **Minimum yaş** | **Tələb olunan dərəcə** | **Son dərəcə ilə minimal ara müddəti** | **Minimal biliklər** |
|---|---|---|---|---|
| **1-ci dan** | 17 | Qəhvəyi kəmər | 1 il | **Nage-no-Kata**<br><br>**Te-waza:** Uki-otoshi, Seoi-nage, Kata-guruma<br>**Koshi-waza:** Uki-goshi, Harai-goshi, Tsurikomi-goshi<br>**Ashi-waza:** Okuri-ashi-harai, Sasae-tsurikomi-ashi, Uchi-mata<br>**Ma-sutemi-waza:** Tomoe-nage, Ura-nage, Sumi-gaeshi<br>**Yoko-sutemi-waza:** Yoko-gake, Yoko-guruma, Uki-waza |
| **2-ci dan** | 20 | 1-ci dan | 2 il | **1-ci DAN minimal bilikləri və Katame-no-Kata**<br><br>***<u>Katame-no-Kata:</u>***<br>**Osaekomi-waza:** Kesa-gatame, Kata-gatame, Kami-shiho-gatame, Yoko-shiho-gatame, Kuzure-kami-shiho-gatame<br>**Shime-waza:** Kata-juji-shime, Hadaka-jime, Okuri-eri-jime, Kataha-jime, Gyaku-juji-jime<br>**Kansetsu-waza:** Ude-garami, Ude-hishigi-juji-gatame, Ude-hishigi-ude-gatame, Ude-hishigi-hiza-gatame, Ashi-garami |
| **3-cü dan** | 24 | 2-ci dan | 3 il | **1 və 2-ci DAN minimal bilikləri və Kime-no-Kata**<br><br>***<u>Kime-no-Kata:</u>***<br>**Idori:** Ryote-dori, Tsukkake, Suri-age, Yoko-uchi, Ushiro-dori, Tsukkomi, Kiri-komi, Yoko-tsuki<br>**Tachiai:** Ryote-dori, Sode-tori, Tsukkake, Tsuki-age, Suri-age, Yoko-uchi, Ke-age, Ushiro-dori, Tsukkomi, Kiri-komi, Nuki-gake, Kiri-oroshi |
| **4-cü dan** | 29 | 3-cü dan | 4 il | **1,2 və 3-cü DAN minimal bilikləri və Ju-no-Kata**<br><br>***<u>Ju-no-Kata:</u>***<br>**Dai-ikkyo:** Tsuki-dashi, Kata-oshi, Ryote-dori, Kata-mawashi, Ago-oshi<br>**Dai-nikyo:** Kiri-oroshi, Ryokata-oshi, Naname-uchi, Katate-dori, Katate-age<br>**Dai-sankyo:** Obi-tori, Mune-oshi, Tsuki-age, Uchi-oroshi, Ryogan-tsuki |
| **5-ci dan** | 30 | 4-cü dan | 5 il | **1,2,3 və 4-cü DAN minimal bilikləri və Kodokan Goshin-jutsu**<br><br>***<u>Kodokan-Goshin-jutsu:</u>***<br>**Toshu-no-bu (silahsız):**<br>1) **Tutma zamanı:** Ryote-dori, Hidari-eri-dori, Migi-eri-dori, Kata-ude-dori, Ushiro-eri-dori, Ushiro-jime, Kakae-dori<br>2) **Hücum olduqda: Dai-sankyo:** Naname-uchi, Ago-tsuki, Ganmem-tsuki, Mae-geri, Yoko-geri |

| | | | | |
|---|---|---|---|---|
| | | | | **Buki-no-bu (silahlı):**<br>1) **Qılınc və ya xəncərə qarşı:** Tsukkake, Choku-tsuki, Naname-tsuki<br>2) **Şəxsə qarşı:** Furi-age, Furi-oroshi, Morote-tsuki<br>3) **Odlu silaha qarşı:** Shomen-zuke Koshi-gamae Haimen-zuke |

6-cı Dan dərəcəsinin verilməsi şərtləri aşağıdakı kriteriyalar əsasında müəyyən edilir.

Şəxslərin kateqoriyalaşdırılması cədvəli

| | **İdmançı** | **Hakim** | **Federasiya rəsmiləri** | **Federasiya məşqçisi** | **İdman təşkilatında məşqçi** |
|---|---|---|---|---|---|
| **A** | Olimpiya və dünya çempionatlarının mükafatçısı olmaq | Beynəlxalq dərəcəli | Cari federasiya strukturunda rəsmi işçi | Olimpiya və Dünya çempionatlarında məşqçilik etmək | Olimpiya və Dünya çempionatlarında məşqçilik etmək |
| **B** | Böyüklərdən ibarət milli komandanın idmançısı olmaq | Respublika dərəcəli | Federasiyanın regionlar üzrə cari kuratoru və regional ACF mərkəzlərinin cari işçisi | Gənclər və Böyüklərdən ibarət milli komandada məşqçilik etmək | Gənclər və Böyüklərdən ibarət milli komandada olan idmançının məşqçisi olmaq |
| **C** | Gənclər və ya böyüklər səviyyəsində beynəlxalq yarışlarda mükafatçı olmaq | 1-ci dərəcəli | Federasiyada əvvəllər rəsmi əsaslarla fəaliyyət göstərən işçilər | Yeniyetmələrdən ibarət milli komandada məşqçilik etmək | Yeniyetmələrdən ibarət milli komandada olan idmançının məşqçisi olmaq |
| **D** | Digər | Digər | Digər | Digər | Digər |

6-cı Dan dərəcəsinin verilməsi üçün minimal tələblər

| | **Kateqoriya** | **Minimum yaş** | **Gözləmə müddəti** | |
|---|---|---|---|---|
| | | | **İmtahanla alınan** | **Dan komissiyasının qərarı ilə verilən** |
| **6-cı DAN** | A | 30 yaş | 4 il | 6 il |
| | B | 35 yaş | 4 il | 8 il |
| | C | 40 yaş | 5 il | 10 il |
| | D | 50 yaş | 6 il | 12 il |

1 şəxsə Dan komissiyasının qərarı ilə maksimum 2 dəfə Dan dərəcəsi verilə bilər. Komissiyanın qərarında səbəb qeyd edilməlidir (məs: namizəd zədəli olduğu halda, fiziki imkanları məhdud olduqda və s).

İmtahan verərək 6-cı dan dərəcəsi almaq istəyən namizədlər üçün şərtlər

| | Minimum yaş | Tələb olunan dərəcə | Son dərəcə ilə minimal ara müddəti | Minimal biliklər |
|---|---|---|---|---|
| **6-cı dan (A)** | 30 | 5-ci dan | 1 il | **1,2,3,4 və 5-ci DAN minimal bilikləri + Koshiki no kata** |
| **6-cı dan (B)** | 35 | 5-ci dan | 3 il | **1,2,3,4 və 5-ci DAN minimal bilikləri + Koshiki no kata** |
| **6-cı dan (C)** | 40 | 5-ci dan | 5 il | **1,2,3,4 və 5-ci DAN minimal bilikləri + Koshiki no kata** |
| **6-cı dan (D)** | 50 | 5-ci dan | 1-ci dan-dan 12 il | **1,2,3,4 və 5-ci DAN minimal bilikləri + Koshiki no kata** |

## Nailiyyətlərə görə ACF tərəfindən Dan dərəcələrinin verilməsi

Aşağıdakı şərtlər üzrə xüsusi hallar kimi ACF tərəfindən dan səviyyəsi təqdim edilə bilər.

### I DAN

1) U-18 Azərbaycan birinciliyi yeniyetmələr arasında 1-ci yer
2) U-21 Azərbaycan birinciliyi gənclər arasında 1 və 2-ci yerlər
3) U-23 Azərbaycan birinciliyi 1 və 2-ci yerlər
4) Böyüklər arasında Azərbaycan çempionatı 1, 2 və 3-cü yerlər

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

### II DAN

1) Böyüklər arasında Azərbaycan çempionatında 2 dəfə 1-ci yer
2) U-21 Avropa birinciliyində 1 və 2-ci yerlər
3) U-23 Avropa birinciliyində 1 və 2-ci yerlər
4) U-18 Avropa birinciliyində 1-ci yer
5) U-18 dünya birinciliyində 1 və 2-ci yerlər
6) Avropa Gənclərinin Olimpiya Festivalı (EYOF) 1-ci yer
7) Yeniyetmələr arasında (15-17 yaş) Olimpiya oyunlarında 1-ci yer
8) Veteranlar arasında Avropa çempionatında 2-ci yer
9) Veteranlar arasında dünya çempionatında 3-cü yer
10) Paracüdoçular arasında Avropa çempionatında 2-ci və 3-cü yerlər

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı (veteranlarda və paracüdoçülarda 8 idmançı) olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

### III DAN

1) U-21 dünya birinciliyində 1 və 2-ci yerlər
2) Böyüklər arasında Avropa çempionatında 2 və 3-cü yer
3) Veteranlar arasında Avropa çempionatında 1-ci yer
4) Veteranlar arasında Dünya çempionatında 2-ci yer
5) Paracüdoçular arasında Avropa çempionatında 1-ci yer
6) Paracüdoçular arasdında dünya çempionatında 2 və 3-cü yerlər

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı (veteranlarda və paracüdoçülarda 8 idmançı) olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

**IV DAN**

1) Böyüklər arasında Avropa çempionatında 1-ci yer
2) Böyüklər arasında Dünya çempionatında 2 və 3-cü yerlər
3) Olimpiya Oyunlarında 3-cü yer
4) Veteranlar arasında dünya çempionatında 1-ci yer
5) Paracüdoçular arasında dünya çempionatında 1-ci yer
6) Paracüdoçular arasında Olimpiya Oyunlarında 2 və 3-cü yerlər

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı (veteranlarda və paracüdoçülarda 8 idmançı) olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

**V DAN**

1) Dünya çempionatında 1-ci yer
2) Dünya çempionatında 2 dəfə 2 və 3-cü yerlər
3) Veteranlar arasında dünya çempionatında 2 dəfə 1-ci yer
4) Paralimpiya çempionatında 1-ci yer
5) Olimpiya Oyunlarında 2-ci yer
6) Paracüdoçular arasında Olimpiya Oyunlarında 1-ci yer

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı (veteranlarda və paracüdoçülarda 8 idmançı) olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

**VI DAN**

1) Olimpiya Oyunlarında 1-ci yer
2) Olimpiya Oyunlarında 2 dəfə 2-ci və 3-cü yer

Qeyd: Hər çəki üzrə minimum 16 idmançı (veteranlarda və paracüdoçülarda 8 idmançı) olmalıdır və minimum 1-ci kyu qəhvəyi kəməri olmalıdır.

## Avropa Cüdo Birliyi tərəfindən dan dərəcəsinin verilməsi

Azərbaycan Cüdo Federasiyası ölkədə cüdonun inkişafı, qitə, dünya, Olimpiya Oyunlarında böyüklər arasında çempion və mükafatçıların məşqçilərinə VII dan dərəcəsi üçün Avropa Cüdo Birliyinə, VIII, IX və X dan dərəcələrinin verilməsi ilə bağlı Beynəlxalq Cüdo Federasiyasına təqdimatla müraciət edə bilər.

**VII dan dərəcəsinin verilməsi ilə bağlı minimumlar cədvəli**

| | Minimum yaş | Tələb olunan dərəcə | Son dərəcə ilə minimal ara müddəti | Minimal biliklər |
|---|---|---|---|---|
| **7-ci dan (A)** | 38 | 6-cı dan | 8 il | **Bütün katalar** |
| **7-ci dan (B)** | 45 | 6-cı dan | 10 il | **Bütün katalar** |
| **7-ci dan (C)** | 50 | 6-cı dan | 10 il və 1-ci dan-dan 25 il | **Bütün katalar** |
| **7-ci dan (D)** | 62 | 6-cı dan | 12 il və 1-ci dan-dan 30 il | **Bütün katalar** |

## Beynəlxalq Cüdo Federasiyası tərəfindən dan dərəcələrinin verilməsi ilə bağlı minimumlar cədvəli

| | Minimum yaş | Tələb olunan dərəcə | Son dərəcə ilə minimal ara müddəti | Minimal biliklər |
|---|---|---|---|---|
| **8-ci dan (A)** | 50 | 7-ci dan | 10 il | **Bütün katalar** |
| **8-ci dan (B)** | 60 | 7-ci dan | 15 il | **Bütün katalar** |
| **9-cu dan** | 60 | 8-ci dan | 10 il | **Bütün katalar** |
| **10-cu dan** | 70 | 9-cu dan | 10 il | **Bütün katalar** |

Avropa Cüdo Birliyi və Beynəlxalq Cüdo Federasiyası tərəfindən dan dərəcələrinin təsdiqlənməsi ilə bağlı istənilən şəxs həmin təşkilatlar tərəfindən təsdiq olunmuş qaydalara uyğun olaraq ACF-ə müraciət edə bilər.

7, 8, 9 və 10-cu dan dərəcələri ilə bağlı Avropa Cüdo Birliyi və Beynəlxalq Cüdo Federasiyası ACF-in müraciəti olmadan heç bir fərdi müraciətləri nəzərdən keçirmir. Müvafiq sənədlər və ödəniş olduğu halda müraciətlərə baxılır. Müraciətlərə müsbət cavab verilmədiyi halda ödəniş geri qaytarılmır. Ödənişin miqdarı ACF-in və BCF-in əlavə sənədləri ilə tənzimlənir və hər ilin sonu növbəti il üçün təsdiqlənir.

## Beynəlxalq Cüdo Federasiyası tərəfindən VIII, IX və X dan dərəcələrinin verilməsi üzrə meyarlar

BCF tərəfindən 8, 9, 10-cu dan dərəcələri yalnız aşağıdakı şəxslərə verilə bilər:

- cüdo üzrə yarış, tədris, təlim, məşqçilik, hakimlik və ya idarəçilik ilə davamlı fəaliyyətlə məşğul olan şəxslər
- cüdo ilə aktiv də davamlı məşğul olan şəxslər
- Yüksək peşəkarlıq və şəxsi xüsusiyyətlərə sahib olan şəxslər
- Cüdo üzrə karyera göstəriciləri yüksək olan şəxslər
- Mərhələli şəkildə dan dərəcələri almış şəxslər
- Milli turnirlərdən yüksək nailiyyəti olan şəxslər
- ACF və Avropa Cüdo Birliyi tərəfindən tövsiyə olunan şəxslər.

Namizədlər:

- Vətəndaşı olduqları ölkələrin milli federasiyası tərəfindən təklif edilməlidir.
- Yaş və sonuncu dan dərəcəsi ili ilə bağlı minimum meyarlara cavab verməlidirlər.
- Cüdo idman növü ilə fasiləsiz məşğul olmalıdırlar.

## Fəxri dan dərəcəsi

Dan komissiyasının qərarı ilə cüdo idman növünün inkişafına töhfə vermiş şəxslərin əməyinin qiymətləndirilməsi məqsədi ilə onlara fəxri dan dərəcələri verilə bilər. Fəxri dan dərəcəsi digər dan dərəcələri ilə eyni deyil. Fəxri dan dərəcəsinin ACF, BCF, ACB tərəfindən təşkil edilən seminarlarda, kurslarda, təlimlərdə və digər tədbir və proseslərdə etibarlılığı yoxdur.

## Dan dərəcələrinin verilməsini qadağan edən hallar

Dan dərəcələrinin alınması üçün namizədin müvafiq meyarları qarşılaması Dan komissiyası tərəfindən araşdırılır və uyğun gələrsə komissiya müvafiq Dan dərəcəsinin verilməsi barədə qərar qəbul edir. Nizam intizam qaydalarının pozulması və ya hər hansı digər uyğunsuzluq səbəbindən namizədin fəaliyyəti ACF tərəfindən məhdudlaşdırılarsa və ya birdəfəlik qadağan edilərsə Dan komissiyası müvafiq Dan dərəcəsinin verilməsindən imtina edə bilər.